

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 157 (23.068)

21 avqust 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvanda yüksək bal toplamış tələbələrlə görüş olub





Avqustun 20-də Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikasında ali, ali hərbi və orta ixtisas məktəblərinə qəbulda tələbə adını qazanan bütün məzunları, onların valideynlərini və müəllimlərini təbrik edərək demişdir: Təhsil hər bir ölkənin, hər bir xalqın aparıcı qüvvəsidir. Əgər bütün sahələrdə inkişafı təmin etmək, yaxşı mütəxəssis hazırlamaq istəyiriksə, onda gənc nəslə yaxşı təhsil verməliyik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"İqtisadiyyatı irəli aparan və ölkənin uğurunu nümayiş etdirən təbii ehtiyatlar yox, təhsil və əhalinin intellektual səviyyəsidir".***

Ali Məclisin Sədri demişdir: Bu gün ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu təhsil strategiyası ölkəmizin intellektual potensialının yüksəlişinə öz töhfəsini verir. Artıq Azərbaycan dünyada təkcə sabitliyin təmin olunduğu və iqtisadiyyatı inkişaf edən ölkə kimi yox, həm də elm və təhsil ölkəsi kimi tanınır. Naxçıvan Muxtar Respublikasında da təhsil quruculuğu əsas vəzifələr sırasındadır. İstər ümumtəhsil, peşə, istərsə də orta ixtisas və ali təhsil məktəblərində yaradılan şərait hərtərəfli inkişaf edən, formalaşmış gəncliyin yetişməsinə hesablanıb. Yeni texnologiyaların və distant təhsilin tətbiqi, müasir tədris metodlarından istifadə dünya təhsil sisteminə inteqrasiyanı sürətləndirib. Ümumtəhsil məktəblərində sürətli internetə çıxışı olan 5337 kompüter və 600-dən artıq elektron lövhə quraşdırılmış, şagirdlərin istifadəsinə zəngin fonda malik kitabxanalar, laboratoriyalar və fənn kabinələri verilmişdir. Təhsilə göstərilən davamlı qayğının və müasir yanaşmanın nəticəsidir ki, tədrisin keyfiyyət göstəriciləri xeyli yüksəlmişdir. Hər il ali məktəbə qəbul olunanların və yüksək bal toplayanların sayının artması bunu bir daha təsdiq edir. Bu il də muxtar respublikada ali məktəblərə qəbul göstəricilərində artım dinamikasına nail olunmuş, 331 məzun 500-700 arasında bal toplamışdır.

Ali Məclisin Sədri demişdir: Dövlətin məqsədi ondan ibarətdir ki, yaradılmış müasir təhsil şəraitindən istifadə edən gənclər düzgün həyat yolu seçsinlər. Çünki yalnız hərtərəfli təhsil alan, peşə öyrənən, özünü ölkəsinin gələcəyinə hazırlayan gənclər dövlətçiliyimizin və müstəqilliyimizin dayağı ola bilərlər. Ümummilli liderimiz Heydər Əliyev tövsiyə edirdi ki, ***"Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, ölkəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir. Bunları sevə bilməyən adam, onları özü üçün mənəvi əsas edə bilməyən gənc həyatda özünə yer tapa bilməyəcəkdir və şübhəsiz ki, ictimai-siyasi prosesdə, müstəqil Azərbaycanın inkişafında lazımi qədər iştirak edə bilməyəcəkdir".***

"Ulu öndərimizin müəyyənləşdirdiyi vəzifələr vətənə layiqincə xidmət etməyin və əsl vətəndaş kimi yetişməyin yoludur. Hər bir gənc harada təhsil almasından, yaşamasından və işləməsindən asılı olmayaraq, ölkəmiz haqqında düşünməli, öz həyat yolunu müstəqil Azərbaycanın gələcək yolu kimi seçməlidir", – deyən Ali Məclisin Sədri bu yolda tələbələrə uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada bütün sahələr kimi, təhsil də diqqət və qayğı



ilə əhatə olunub. Bunun nəticəsidir ki, müstəqillik illərində 200-dən çox təhsil müəssisəsi tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili, elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin yaradılması, elmi dərəcəsi olanlar tərəfindən ümumtəhsil məktəblərində nümunəvi dərslərin keçirilməsi şagirdlərin vətənpərvərlik və milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyəsində, qabaqcıl təcrübənin öyrənilməsi, informasiya texnologiyalarından istifadə bacarıqlarının və biliklərinin artırılmasında mühüm rol oynayır.

Qeyd olunmuşdur ki, muxtar respublikada təhsilə göstərilən dövlət qayğısının və yaradılan müasir şəraitin nəticəsidir ki, ümumtəhsil məktəblərinin məzunları həm buraxılış imtahanlarında, həm də ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında yüksək nəticələr əldə edirlər. 2017-2018-ci tədris ili üzrə ümumtəhsil məktəblərini 2803 məzun bitirmişdir. Məzunların 2307-si ali məktəblərə sənəd vermişdir ki, bu da məktəbi bitirənlərin 82,3 faizini təşkil edir. Qəbul üçün sənəd verən məzunların 1062-ni və ya 46 faizini qızlar, 1245-ni və ya 54 faizini isə oğlanlar təşkil etmişdir. Bu il orta ixtisas məktəblərinə də sənədvermədə artım olmuş, ümumi orta təhsil bazasından 1185, tam orta təhsil bazasından 328 olmaqla, ümumilikdə, 1513 nəfər orta ixtisas məktəblərinə sənəd vermişdir ki, bu da ötən ilin göstəricisindən 13 faiz çoxdur. Muxtar respublikada hərbi təhsilə maraq ildən-ilə artır. 2018-ci ildə muxtar respublikanın 171 ümumtəhsil məktəbindən Heydər Əliyev adına Hərbi Liseyə qəbul üçün 490 şagird sənəd vermiş, onlardan 29-u qəbul olmuşdur. Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul üçün 388, Qızlar Liseyinə isə 213 şagird sənəd vermişdir. İmtahanın nəticələrinə əsasən 60 şagird Naxçıvan Qızlar Liseyinə, 60 şagird isə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul olmuşdur. 2018-ci ilin məzunlarından 1542-si ali təhsil müəssisələrinə qəbul olmuşdur. Eyni zamanda Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 208-i ölkənin müxtəlif ali hərbi məktəblərinə qəbul olmuşdur. Ümumilikdə, ali hərbi məktəblərə və Azərbaycan Respublikasının digər ali məktəblərinə 1750 məzun qəbul olmuşdur ki, bu da həmin təhsil müəssisələrinə sənəd verənlərin 60 faizini təşkil edir.

Abituriyentlər ixtisas seçimi zamanı muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinə daha çox üstünlük verirlər. 2018-ci ildə 1170 nəfər, yaxud qəbul olanların 76 faizi ixtisas seçimi zamanı Naxçıvan Muxtar Respublikasında yerləşən ali təhsil müəssisələrini seçmişlər ki, onlardan da 744-ü Naxçıvan Dövlət Universitetinə, 215-i "Naxçıvan" Universitetinə, 211-i isə Naxçıvan Müəllimlər İnstitutuna qəbul olmuşlar. Tələbə adını qazanan məzunlardan 19-u isə xüsusi təyinatlı ali məktəblərə qəbul olmuşdur. Bu il qəbul imtahanlarında məzunların 331-i 500-700 arası bal toplamışdır ki, bu da ötən illə müqayisədə 42 nəfər, yaxud 15 faiz çoxdur. Ali təhsil müəssisələrinə qəbul prosesində yüksək nəticələrə nail olanların 190 nəfərini, yaxud 57 faizini qızlar, 141 nəfərini, yaxud 43 faizini isə oğlanlar təşkil edir. Yüksək bal toplayan abituriyentlərin 71-i Naxçıvan şəhər, 51-i Şərur, 35-i Babək, 37-si Ordubad, 40-ı Culfa, 15-i Kəngərli, 18-i Şahbuz, 10-u Sədərək rayonunun, 54-ü isə Təhsil Nazirliyinə birbaşa tabe ümumtəhsil məktəblərinin məzunlarıdır. Ötən il ali məktəblərə qəbulda muxtar respublikanın 108 məktəbinin məzunları 500-700 arası yüksək nəticə göstərmişdirsə, bu il bu nəticə artaraq 118-ə çatmışdır. Yüksək bal toplayan abituriyentlərin keyfiyyət göstəricisində əvvəlki illə müqayisədə artım olmuşdur. Belə ki, ötən tədris ilində 600-700 intervalında nəticə göstərənlərin sayı 30 faiz artaraq 77 nəfərdən 100-ə, 500-600 intervalında nəticə göstərənlərin sayı isə artaraq 212-dən 231-ə yüksəlmişdir. Həmçinin əvvəlki ildə 500-700 arası bal toplayan məzunlardan 165-i muxtar respublikada fəaliyyət göstərən ali məktəblərdə təhsil almağa üstünlük vermişlərsə, cari ildə bu göstərici artaraq 182 nəfər olmuşdur. 2017-2018-ci tədris ilində məzunlardan 13-ü "Qızıl", 11-i "Gümüş" medallara, 151-i isə fərqlənmə attestatına layiq görülmüşdür. Həmin məzunlar onlara göstərilən etimadı doğrultmuş, "Qızıl" və "Gümüş" medallara layiq görülənlər qəbul imtahanlarında 620-695, fərqlənmə attestatına layiq görülənlər isə 500-700 arası bal toplamışlar.

Təhsil naziri demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə bilik və bacarıqları qiymətləndirilmiş müəllimlərin əməkhaqlarının artırılması təhsilə, təhsil işçilərinə göstərilən qayğının bariz nümunəsidir. Həmçinin bu ildən etibarən pedaqoji kadrların işə qəbulu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən həyata keçirilir ki, bu da ümumtəhsil məktəblərinin pedaqoji kadrlarla təminatında əvvəlki illərdə yol verilmiş nöqsanların aradan qaldırılması və bu prosesin şəffaf həyata keçirilməsində mühüm rol oynamaqdadır.

Valideyn Məryəm Hüseynova çıxış edərək demişdir: Müəllimi olduğum Naxçıvan şəhər 17 nömrəli tam orta məktəb 2012-ci ildə yenidən qurulmuş, müasir tədrisin tələblərinə uyğun infrastruktur yaradılmışdır. 2017-2018-ci tədris ilində məktəbimizi bitirən şagirdlərdən 1-i "Gümüş" medal, 1-i fərqlənmə attestatı almış, 15-i ali təhsil müəssisələrinə qəbul olmuşdur. Qəbul imtahanlarında şagirdlərimizdən 3-ü 600-dən, 1-i 500-dən yuxarı bal toplamışdır. Məktəbimizin şagirdi Heydər Əliyev adına Hərbi Liseyə qəbulda muxtar respublika üzrə ən yüksək bal toplayaraq liseyin kursantı adını qazanmışdır. Muxtar respublikada həyata keçirilən təhsil siyasəti gənclərimizin işıqlı gələcəyinə stimul yaratmışdır. Hər il ali məktəblərə qəbulda yüksək bal toplayan tələbələrə qayğı göstərməyiniz, onlarla görüşünüz övladlarımızı daha yaxşı oxumağa ruhlandırır, müəllim və valideynlərdə isə sabaha cavabdehlik hissini daha da artırır. Bu gün mən çox sevinirəm ki, muxtar respublikada təhsilə göstərilən dövlət

*Ardı 2-ci səhifədə*

qayğısının nəticəsi olaraq övladım tam orta məktəbi "Gümüş" medalla bitirmiş, 654 bal toplamış və Naxçıvan Dövlət Universitetinin tələbəsi adını qazanmışdır. Ötən il isə digər övladım fərqlənmə attestatı alaraq 629 bal toplamış və Naxçıvan Dövlət Universitetinə qəbul olmuşdur. İstənilən valideyn üçün bundan böyük bir xoşbəxtlik, bundan böyük sevinc ola bilməz.

Məryəm Hüseynova yaradılan təhsil şəraitinə görə bütün valideynlər və müəllimlər adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Qəbul imtahanlarında 695 bal toplamış tələbə Millət Hacıyev demişdir: Vətəninin, xalqının tərəqqisi üçün əzmkarlıqla fəaliyyət göstərən rəhbərlə görüş hər bir gəncin arzusudur. Bu gün biz gənclər sevinirik ki, ən böyük arzumuza çatmışıq və qurucu rəhbərlə görüşürük. Gənc nəslə qayğının ifadəsidir ki, biz muxtar respublikada ən müasir maddi-texniki bazaya və zəngin kitabxanalara malik olan, informasiya texnologiyaları və elektron tədris vəsaitləri ilə təchiz edilmiş təhsil müəssisələrində yüksək biliklərə yiyələnərək tələbə adını qazanmışıq. Digər yoldaşlarım kimi öz məsuliyyətimi başa düşmüş, qəbul imtahanlarında 695 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasına qəbul olunmuşam. Məktəbdə oxuduğum illərdə mənə verilən təhsilin dəyəri təkcə qəbul imtahanında topladığım yüksək bal ilə ölçülmür, həm də Azərbaycana layiqli vətəndaş kimi formalaşmağım ilə birbaşa bağlıdır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Azərbaycanın xoşbəxt gələcəyi üçün gənclər layiqli Azərbaycan vətəndaşı adını şərəflə daşımalıdır, öz ölkəsinin, millətinin, xalqının vətənpərvər övladı olmalıdır"***. Bu müdrik fikirlər gənclərdə yüksək amallar formalaşdırır, gələcəkdə hansı sahədə çalışmağımızdan asılı olmayaraq, Azərbaycanımızı ümummilli liderimiz Heydər Əliyev kimi sevməyə, Vətənimizə, xalqımıza fədakarlıqla xidmət göstərməyə ruhlandırır. Tələbə Millət Hacıyev Naxçıvan gəncliyinin inkişafına göstərdiyi qayğıya görə ali məktəblərə qəbulda yüksək bal toplamış bütün tələbələr adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra ali məktəblərə qəbul imtahanlarında 500-700 arası bal toplayaraq tələbə adını qazanmış məzunlara "Caspian Energy" jurnalının Naxçıvan Muxtar Respublikasına həsr olunmuş xüsusi buraxılışı və pul mükafatı təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Maliyyə bazarlarına nəzarət iqtisadi siyasətin mühüm tərkib hissəsidir

***İqtisadiyyatın inkişafının mühüm şərtlərindən biri cəmiyyətin sosial-iqtisadi inkişafının bütün istiqamətləri üzrə nəzarət işinin təşkilidir. Bu baxımdan inzibati, iqtisadi və təsərrüfat nəzarət növləri ilə yanaşı, həyata keçirilən maliyyə nəzarəti çox mühüm idarəetmə mexanizmi kimi müasir dövrdə dünya iqtisadiyyatının inkişafında diqqəti cəlb edir. Ölkənin maliyyə resurslarından düzgün istifadə olunmasına yönəlmiş dövlət maliyyə siyasətinin bir hissəsi olan maliyyə nəzarəti, son nəticədə, uzunmüddətli dayanıqlı inkişafın təmin olunmasına xidmət edir.***

Bazar iqtisadiyyatı şəraitində iqtisadiyyata maliyyə nəzarətinin böyük əhəmiyyəti vardır. Ölkəmizdə də mövcud qanunvericiliyə uyğun olaraq həyata keçirilən maliyyə nəzarəti iqtisadi fəaliyyət subyektlərinin, habelə müxtəlif orqanların fəaliyyətlərinin qanunauyğunluğunu təmin etmək, maliyyə resurslarının, xüsusən daha likvid vəsaitlərin qeyri-qanuni yollarla israf olunmasının qarşısını almaq, bu sahədə dövlət maraqlarının təmin olunması funksiyasını həyata keçirir. Belə nəzarət orqanı kimi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli Fərmanına uyğun olaraq yaradılan Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsi qarşısında qoyulmuş vəzifələr də müasir Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası yolunda atılmış mühüm islahatlardan biridir. Bununla yanaşı, 2017-ci ilin fevral ayından fəaliyyətə başlayan Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi də muxtar respublikanın icra hakimiyyəti orqanları, hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə olmaqla, öz işini qurmaqla qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsinə çalışır. Muxtar respublikamızda kredit, sığorta, lisenziyalaşdırılan ödəniş sistemləri, habelə qiymətli kağızlar bazarı, investisiya fondlarının fəaliyyətinə nəzarət olunması, müvafiq yoxlamalar aparılması və qanunvericiliklə nəzərdə tutulmuş qaydada hesabatların alınması idarənin fəaliyyətinin əsas istiqamətlərindəndir. Bundan başqa, idarə muxtar respublikadakı maliyyə bazarlarında istehlakçıların və investorların hüquqlarının müdafiəsini və bu hüquqların pozulmasının qarşısını almaq, nəzarət subyektlərinin fəaliyyətinin şəffaflığını təmin etmək, qiymətli kağızların emissiyası və tədavülünə, qiymətli kağızların dövriyyədən çıxarılmasına, aksiz markaların dövriyyəsinə, idman mərc oyunlarının təşkili və keçirilməsinə, habelə lotereyaların və stimullaşdırıcı kampaniyaların keçirilməsinə nəzarət edir. Son dövrlər dünya maliyyə bazarlarında manipulyasiya yolu ilə valyutaların və iri şirkətlərin qiymətli kağızları üzərindən qazanc əldə olunması hallarının yayılması bu sahəyə də olan nəzarəti aktuallaşdırıb. Palata və onun Naxçıvan Muxtar Respublikasındakı idarəsi həmin sahədə də nəzarət funksiyasını yerinə yetirir. Göründüyü kimi, bu qurum qarşısında qoyulmuş vəzifələr kifayət qədər genişdir və muxtar respublikamızda maliyyə bazarlarının fəaliyyətini təhlil etmək və proqnozlaşdırmaq, bunun əsasında bu sahənin inkişafı ilə bağlı təkliflər hazırlamaq kimi mühüm məsuliyyətli işlər onların qarşısında durur.

Ümumilikdə, ölkəmiz üçün nisbətən yeni qurum olsa da, yarandığı dövrdən Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi xeyli təcrübə əldə edib. Təkcə cari ilin birinci yarımili üzrə görülmüş işlərə nəzər saldıqda, muxtar respublikamızın hərtərəfli sosial-iqtisadi inkişafında bu qurumun da payı olduğunu görürük. Belə ki, idarənin rəisi Tapdıq Əliyevdən aldığımız məlumata əsasən bu dövrdə idarə tərəfindən daxili istehsal olan alkoqollu içkilər və tütün məmulatları üzrə cəmi 63 milyon 200 min ədəd aksiz markası istehsalçılara təhvil verilib. Cari ilin yanvar-iyun ayları ərzində 55 ədəd ipoteka kağızının dövlət qeydiyyatı aparılmış, 44 ədəd ipoteka kağızı isə əlavə dövlət qeydiyyatına alınaraq reyestrə daxil edilmişdir. Bununla yanaşı, Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu tərəfindən daxil olmuş müraciətə əsasən 9 ədəd ipoteka kağızına xitam verilmişdir. Həmçinin bu müddət ərzində muxtar respublikadakı bir sıra açıq səhmdar cəmiyyətlərin qiymətli kağızlarının dövriyyədən çıxarılması və bir səhmdar cəmiyyətin səhm buraxılışı ilə müraciəti araşdırılıb, qanuni olaraq rəsmiləşdirilib.

Bunlardan əlavə, cari ilin ilk yarısında "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən keçirilən ani stimullaşdırıcı lotereya kampaniyası idarə tərəfindən qeydiyyata alınıb və qanunvericiliyin tələblərinin pozulmaması nəzarətdə saxlanılıb. Ayrıca olaraq, muxtar respublikada sığorta sahəsində qanunvericiliyin tələblərinə əməl olunmasına ciddi nəzarət edilib. 2018-ci ilin birinci yarımili ərzində muxtar respublikada fəaliyyət göstərən sığorta təşkilatlarından müvafiq hesabatlar alınmış və şikayət ərizəsi ilə müraciət etmiş vətəndaşların ərizələri qanunvericiliyə uyğun olaraq araşdırılmış və vətəndaşlara bu barədə məlumat verilmişdir.

İdarə bank sektorunda çalışan işçilərin bilik və təcrübələrinin artırılmasında da verilmiş tapşırıqların yerinə yetirilməsinə diqqət göstərir. Belə ki, cari ilin may ayında Naxçıvan Biznes Mərkəzində Maliyyə Bazarlarına Nəzarət Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin və "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin təşkilatçılığı ilə Azərbaycan Bank Tədris Mərkəzi tərəfindən "Çirkli pulların yuyulmasına qarşı tədbirlər" mövzusunda 50 nəfərin iştirakı ilə təlim keçirilmişdir.

Müasir dövrdə muxtar respublika iqtisadiyyatı çoxşaxəli olub, dinamik inkişafa malikdir. Belə ki, kredit qoyuluşlarına nəzər salsaq, 1 iyul 2018-ci il tarixə burada fəaliyyət göstərən banklar və kredit təşkilatlarının kredit qoyuluşu 105 milyon 544 min manat təşkil etmişdir. Təkcə cari ilin ilk 6 ayında 26 milyon 438 min 100 manat kredit verilmişdir. Kreditləşmə üzrə ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 milyon 718 min manat artım qeydə alınmışdır. İdarəmizin və aidiyyəti idarə və nazirliklərin əməkdaşlarının iştirakı ilə ticarət, iaşə və xidmət müəssisələrində quraşdırılmış POS-terminalların işləkliyi vəziyyəti mütəmadi yoxlanılmış, maarifləndirici tədbirlər həyata keçirilmişdir. Əhalinin nağdsız ödənişlərə marağının artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi ilə birgə nağdsız ödənişlərə üstünlük verən vətəndaşların mütəmadi mükafatlandırılması tədbirləri də həyata keçirilmişdir. Bütün bunlar isə muxtar respublikada mütərrəqi ödəniş texnologiyaları infrastrukturunun yaradılması, vətəndaşlar üçün bank xidmətlərinin əlçatan olması və real sektorun dəstəklənməsi ilə mümkün olub. Bu sahədə əldə olunmuş nailiyyətlərin daha da artırılması üçün Maliyyə Bazarlarına Nəzarət Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi qarşıdakı dövrdə də üzərinə düşən vəzifələri dəqiq və vaxtında yerinə yetirməyə səy edəcəkdir.

✍ **Əli CABBAROV**

# Avtomobil yollarında hərəkətin intensivliyi payız-qış aylarında da təmin ediləcək

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən iclası agentliyin direktoru Bəhruz Əsgərov açaraq məruzə edib. Bildirib ki, avqustun 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Avtomobil Yolları Dövlət Agentliyinin



qarşısında mövsüm ərzində yolların qardan təmizlənməsi üçün texnikaların işlək vəziyyətdə olması və qum ehtiyatı yaradılmasının təmin edilməsi kimi vəzifələr qoyulub. Verilmiş tapşırıqların icrası ilə bağlı agentlik və onun tabeliyində olan yol istismar idarələri hazırda bu istiqamətdə kompleks tədbirlər görür.

Qeyd olunub ki, leysan yağışları zamanı və soyuq qış mövsümündə avtomobil yollarında hərəkətin intensivliyinin təmin edilməsi məqsədilə bütün texnikalara baxış keçirilib, fəhlə və mexanizatorların mövsümlə əlaqədar iş paltarları ilə təmin olunması nəzərdə tutulub. Ümumilikdə, qış mövsümündə işləyəcək mexanizatorlar üçün 72 dəst isti paltar, 82 cüt isti ayaqqabı alınması, çətin hava şəraitində işləyəcək avtomaşınlar üçün zəncir tədarük olunması nəzərdə tutulub. Həmçinin 12 avtoqreyder, 29 yükboşaldan avtomaşın, 8 buldozer, 1 qumsəpən avtomaşın, 3 ekskavator, 5 avtoyükləyici və 3 qartəmizləyən maşın qış mövsümündə muxtar respublikamızın şəhər və rayonlarının, ucqar dağ və sərhəd kəndlərinin avtomobil yollarında yarana biləcək hər hansı bir maneənin vaxtında aradan qaldırılması üçün tam hazır vəziyyətə gətirilib.

Bildirilib ki, avtomobil yollarının buzdan təmizlənməsində mühüm rol oynayan qum tədarükü də diqqətdə saxlanılıb, Şorsu massivindən xammal daşınaraq 600 kubmetr ehtiyat yaradılıb. Həmçinin ucqar dağ kəndlərində hərəkətin fasiləsizliyini təmin etmək məqsədilə buldozer və traktorların işləməsi nəzərdə tutulub, bu texnikalar üçün yanacaq-sürtkü materialları alınıb. Eləcə də yağacaq qarın əriməsi nəticəsində yolların və yol qurğularının zərər çəkməməsini təmin etmək məqsədilə muxtar respublika ərazisində olan körpü və suötürücü qurğular yoxlanılıb, giriş hissələri palçıq və lildən təmizlənib. Agentlik istismar olunan yollarda əsaslı və orta təmir işlərini, eləcə də yol kənarlarında olan materialların kənarlaşdırılması tədbirlərini oktyabr ayının sonunadək başa çatdıracaq.

Sonra payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı görüləcək işlərin müzakirəsi aparılıb.

✍ **Nail ƏSGƏROV**

# Həkim-məsləhət komissiyalarının fəaliyyəti müzakirə olunub

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində 2018-ci ilin 7 ayı ərzində həkim-məsləhət komissiyalarının (HMK) fəaliyyəti və Tibbi-Sosial Ekspert Komissiyasına (TSEK) göndərişlərin vəziyyəti müzakirə edilib.*

Səhiyyə naziri Niyazi Novruzov xəstəliyə görə əlillik qrupu pensiyalarının və müavinətlərin dayanıqlı maliyyə təminatının formalaşdırılmasını ölkədə həyata keçirilən uğurlu sosial siyasətin bəhrəsi kimi dəyərləndirərək bu sahədə görülən işlərdən danışıb.

Sonra Səhiyyə Nazirliyində əlilliyin müəyyən edilməsi və TSEK-ə göndərişlərə nəzarət komissiyasının sədri Süleyman Cəfərov ötən 7 ay ərzində daxil olan müraciətlər, ekspertizadan keçən, əlillik qrupu təyin edilən, əlavə müalicəyə qaytarılan, əlillikdən imtina olunan xəstələr haqqında məlumat verib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Tibbi-sosial ekspert komissiyaları haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə 2016-cı il 5 dekabr tarixli qərarına uyğun olaraq həkim-məsləhət komissiyalarının TSEK-ə göndərişləri Səhiyyə Nazirliyinə daxil olur və həftədə bir dəfə araşdırılır. Göndəriş və tibbi sənədlərdə çatışmazlıqlar qeydə alınan hallarda nöqsanlar qeyd edilməklə geri qaytarılır. Təlimata uyğun olduğu müəyyən edilən hallarda isə xəstələrin tibbi sənədləri və siyahısı İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemi vasitəsilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilir. Göndəriş və tibbi sənədləri qanunvericiliyə uyğun olan xəstələr TSEK tərəfindən çağırılır və əlillik qrupu təyin edilir.

2018-ci ilin yanvar ayından tibb müəssisələri rəhbərlərinin razılığı əsasında HMK-nın, əsasən, baş həkimlərdən ibarət sədrləri və üzvlər təsdiq edilib.

Bildirilib ki, tibb müəssisələri tərəfindən cari ilin 7 ayı ərzində nazirliyə 966 göndəriş daxil olub. Bu müddət ərzində nazirlikdə komissiya tərəfindən 34 xəstə müayinəyə dəvət edilib, 590 xəstənin tibbi sənədləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin TSEK-nə göndərilib. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə TSEK-ə göndərişlər 41 ilkin qeydəalma, 47 müavinət, 26 nəfər ağırlaşma hesabına artıb. TSEK-ə göndərilən xəstələr arasında sinir, göz, onkoloji, psixi, kardioloji, travma və endokrin sistemi xəstələri üstünlük təşkil edirlər. Onların 60 faizindən çoxu sinir, ürək-damar, onkoloji və endokrin xəstələrin payına düşür.

Göz xəstələrinin sayının çoxluğu bu xəstəliklərə qarşı müalicə-profilaktika tədbirlərinin düzgün qurulmadığını göstərir. Ağırlaşmaların sayının çoxalması, xüsusən də III qrup xəstələrin I qrupa keçirilməsi halı artıb. Şəkərli diabet xəstəliyinə görə görmə pozğunluğu ağırlaşmalarının artması da xüsusilə qeyd edilməlidir.

İclasda yol verilən nöqsanlar və onların aradan qaldırılması, xüsusən də imtina halları müzakirə olunub. Qeyd olunub ki, 2016-2017-ci illərlə müqayisədə TSEK-ə göndərişlərdə qeyd olunan nöqsanlar xeyli azalsa da, tibbi sənədləşmə işi yaxşılaşsa da, bir sıra nöqsanlar hələ də aradan qaldırılmayıb. Yol verilmiş nöqsanlara görə TSEK tərəfindən 80 xəstənin sənədləri geri qaytarılıb, 16 nəfərin əlavə müalicəyə, 5 nəfərin əlavə müayinəyə göndərilməsi məsləhət bilinib.

Diqqətə çatdırılıb ki, göndərişlərin hazırlanmasında bir sıra ciddi nöqsanlara yol verilib. Qeyd olunan bu və digər nöqsanların yaranması tibb müəssisələrindəki HMK-ların öz işlərinə laqeyd münasibəti ilə bağlıdır. Bu da xəstələrin haqlı narazılığına, şikayətlərin artmasına zəmin yaradır.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb və müvafiq qərar qəbul olunub.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin***
***mətbuat xidməti***

*Tarixdən bu günə*

# Naxçıvandakı qədim yaşayış yerləri Cənubi Qafqaz arxeologiyasının açarıdır

***Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvanda tarix və mədəniyyət abidələri yüksək dövlət qayğısı ilə əhatə edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamlarına uyğun olaraq 2005-ci ildən başlayaraq burada olan tarix və mədəniyyət abidələrinin qeydə alınması davam etdirilməkdədir. Son illər aparılan araşdırmalar zamanı Naxçıvanda formalaşan qədim mədəniyyətlərin Cənubi Qafqaz, o cümlədən Azərbaycan üçün mühüm əhəmiyyəti olduğunu təsdiq edən yeni abidələr aşkar olunub.***

Cənubi Qafqaz mədəniyyətləri ilə Yaxın Şərq mədəniyyətləri arasındakı əlaqələrin mövcudluğu uzun müddətdir ki, qafqazşünas arxeoloqların diqqətini cəlb etməkdədir. R.Munçayev, O.Həbibullayev, İ.Nərimanov, T.Axundov və digərləri Yaxın Şərq mədəniyyətlərinin Cənubi Qafqaza yayılması ilə bağlı müxtəlif fikirlər söyləyiblər. Bu əlaqələrin mövcudluğu indiyədək tək-tək tapıntılarla təmsil olunurdusa, hazırda arxeoloji materialların bütöv kompleksi ilə təsdiq edilir. Belə arxeoloji material mənbələrindən biri də Dalma təpətipli keramika ilə xarakterizə olunan Naxçıvan təpə yaşayış yeridir.




Bu yaşayış yeri Naxçıvançayın sağ sahilində, dəniz səviyyəsindən 853 metr yüksəklikdə yerləşir və vaxtilə buradakı yarğanın üzərində salınıb. Ehtimal ki, çay yaşayış yerinin yaxınlığından keçirmiş, hazırda isə ondan 200 metr aralıdadır. Yaşayış yerinin bir hissəsi əkin sahələrinin altında qalıb, bir hissəsi isə Naxçıvançay üzərindən körpü çəkilərkən dağıdılıb. Hazırda yaşayış yerinin salamat qalan hissəsinin sahəsi 2 hektara yaxındır.

Araşdırmalara əsasən demək olar ki, Naxçıvan təpə yaşayış yerinin sakinləri ilk dövrlərdə bir tərəfi ana torpaqda qazılmış, digər qismi isə kərpiclə hörülmüş yaşayış evlərindən istifadə ediblər. Bu tip yaşayış evlərinin qalıqlarına Ovçular təpəsində və Yeni yol yaşayış yerində də rast gəlinir. Sonrakı mərhələdə kərpicdən inşa olunmuş dördkünc formalı evlərdən istifadə olunub.

Yaşayış yerindən aşkar olunan arxeoloji materialların əksəriyyəti keramika məmulatı və obsidian parçalarından ibarətdir. Belə məmulatların əsas xüsusiyyəti Dalma təpətipli boyalı və basma naxışlı keramikanın olmasıdır. Keramika məmulatı gil laylarını bir-birinin üzərinə yapışdırmaq və bir-birinin üzərinə qoymaqla, yəni lent üsulu ilə hazırlanıb. Bəzi qabların üzəri incə təbəqə ilə suvanıb. Araşdırma göstərir ki, bu, bəzi hallarda qabların rəng tonunu dəyişmək, bəzən isə ornamentasiya məqsədilə edilib. Bu, xüsusilə barmaq basqısı ilə naxışlanmış keramikaya aiddir. Səliqəsiz və qarışıq barmaq basqıları qabların üzərinə ayrıca layların yapışdırılması ilə bağlı olub. Lakin bəzən bu üsuldan qabların təmir edilməsi üçün də istifadə edilib. Keramika məmulatı başlıca olaraq saman qarışığı olan gildən hazırlanıb və qırmızı rəngin müxtəlif tonlarında bişirilib. Qum qarışığı olanlar tək-tək nümunələrlə təmsil olunub. Rəng tonları sarı və qırmızının müxtəlif tonları ilə təmsil edilib. Az miqdarda boz rəngli qablara təsadüf olunur. Bu məmulatlar başlıca olaraq eramızdan əvvəl V minilliyin birinci yarısı üçün xarakterikdir. Bu tip keramika məmulatları ilə xarakterizə edilən yaşayış yeri Cənubi Qafqazda ilk dəfədir ki, aşkar olunur. Naxçıvan yaşayış yerinin tədqiqi yalnız Azərbaycanın deyil, bütövlükdə, Cənubi Qafqazın Eneolit mədəniyyətinin ardıcıl mərhələlərini öyrənməyə imkan verir.





Yaşayış yerindən aşkar olunan heyvan sümüklərinin analizi buradakı insanların heyvandarlıqla məşğul olduğunu, əsasən, mal-qara və xırdabuynuzlu heyvan saxladıqlarını göstərir. Ovçuluqdan çox az istifadə olunub.

Araşdırmalar Dalma təpətipli keramikanın cənuba doğru irəlilədikcə azaldığını göstərir. Öncə Urmiya gölünün cənubunda və qərbində yayıldığı güman edilən bu keramika Urmiyanın şimalında, hazırda isə Naxçıvanda aşkar olunmuşdur. İran Azərbaycanında bu mədəniyyət Culfa Kültəpəsi, Ahranjan təpə, Lavin təpə, Qoşa təpə, İdir təpə və Baruj təpə yaşayış yerlərinin qazıntısı zamanı aşkar edilib. Yaşayış yerlərinin bir qismi oturaq əhaliyə, bir qismi isə köçmə maldarlıqla məşğul olan insanlara məxsusdur. Tədqiqatçıların fikrinə görə, bu mədəniyyət Şimal-Qərbi İranda çiçəklənib və Urmiya gölünün cənubuna yayılıb. Dalma təpə keramikasının kimyəvi analizi onun yerli istehsalın məhsulu olduğunu göstərir. Yaşayış yerinin alt təbəqəsindən götürülən kömürün analizi onun eramızdan əvvəl 4945-ci ilə aid olduğunu göstərir. Bu yaşayış yerinin, həmçinin Sirabçay hövzəsində yerləşən digər abidələrin tədqiqi Cənubi Qafqazın, o cümlədən Azərbaycanın Eneolit mədəniyyətini dövrləşdirməyə imkan verir.

Məlum olduğu kimi, Eneolit dövrünün erkən və orta mərhələsinə aid arxeoloji tapıntılar Cənubi Qafqazda yox deyiləcək qədər azdır. Bu isə həmin dövrün kifayət qədər yaxşı öyrənilmədiyini göstərir. Bu baxımdan Sirabçay hövzəsində aşkar olunan Uzun oba və Uçan ağıl yaşayış yerlərinin böyük əhəmiyyəti vardır. Bu yaşayış yerlərindən götürülən karbon analizlərin nəticələri eramızdan əvvəl 4690-4450-ci illəri göstərməklə Ovçular təpəsi ilə təmsil olunan Son Eneolit dövründən əvvəlki dövrə aiddir.

Dalma təpətipli boyalı keramika məmulatı Naxçıvanda hələlik Uzun oba və Uçan ağıl yaşayış yerlərindən tək-tək nümunələrlə məlumdur. Barmaq basqılı keramika isə hələlik Uçan ağılda bir nümunə ilə təmsil olunur. Babək rayonunun Göynük kəndi yaxınlığında yerləşən Bülöv qaya yaşayış yerində Dalma təpətipli boyalı keramikanın aşkar olunması bu tip keramikanın gələcəkdə başqa abidələrdən də tapılacağını ehtimal edir. Dalma təpətipli basma naxışlı keramika tək-tək nümunələrlə Qarabağ abidələrindən də məlumdur. Qeyd etmək lazımdır ki, Dalma təpə mədəniyyətinə aid keramika məmulatının bir qrupu qırmızı rəngdə boyanması ilə xarakterizə olunur. Bu tip keramika Uçan ağıl, Uzun oba, Bülöv qaya yaşayış yerlərindən, həmçinin Qarabağ abidələrindən məlumdur. Yeri gəlmişkən qeyd edək ki, qırmızı rənglə anqoblanmış keramika Naxçıvanda Xələc yaşayış yerində geniş yayılmışdır. Xələc keramikasının formaca Urmiya hövzəsindəki Göytəpə yaşayış yerindən aşkar olunan qablarla bənzər olmasına baxmayaraq, boyama motivləri tamamilə fərqlidir. Lakin Göytəpədə də anqobüstü naxışlara rast gəlinir. Yanıqtəpə ilə də bəzi müqayisələr aparmaq mümkündür. Yanıqtəpə qablarında Xələc üçün xarakterik olan enli paralel xətlərə rast gəlinir. Xələc keramikasının bəzəmə motivi yaxınlıqda yerləşən Tilkitəpə və Texut keramikasından fərqlənərək Mil düzünün abidələri, xüsusilə Kəbirli keramikasının naxışları ilə uyğundur. Onlar naxışların çəkilmə texnikasına görə də eynidir. Bəzi hallarda burada Xələcdə olduğu kimi anqobüstü naxışlardan istifadə olunub. Xələc keramikasının naxış motivlərinin bənzər olduğu abidələrdən biri Norşuntəpədir. Lakin Norşuntəpədə boya anqob üzərinə deyil, qabın saxsısı üzərinə çəkilib. Xələc boyalıların bəzi bəzəmə motivləri Xalaftipli qablarda da işlənib. Araşdırmalar qırmızı anqoblu keramikanın Eneolit dövrünün erkən mərhələsi üçün xarakterik olduğunu, Eneolitin orta mərhələsində də mövcud olduğunu göstərir.

Uzun oba və Uçan ağıl keramikasının araşdırılması onların eramızdan əvvəl V minilliyin birinci yarısına və Ovçular təpəsindən əvvələ aid olduğunu təsdiq edir. Bu, abidələrdən götürülən karbon nümunələrinin analizi ilə də təsdiq olunub. Uçan ağıl yaşayış yerindən, Culfa Kültəpəsindən məlum olan Dalma təpətipli boyalı keramika parçalarının aşkar olunması bu yaşayış yerləri arasında əlaqələrin olduğunu təsdiq etməkdədir. Qeyd edək ki, Uçan ağıldan aşkar olunan boyalı keramika nümunələrinin biri də Mesopotamiya abidələrində yayılan boyalılarla bənzərdir. Bununla bərabər, Sirabçay hövzəsindən aşkar olunan Son Eneolit dövrü keramikası Ovçular təpəsi mədəniyyətində fərqli xüsusiyyətlərə malikdir. Ovçular təpəsindən fərqli olaraq Sirabçay hövzəsinin Son Eneolit keramikasında darama bəzəmələr yoxdur. Ovçular təpəsindən sonraya aid olan bu mədəniyyət sarı və qırmızı rəngli, saman qarışığı olan keramika ilə təmsil olunub. Saman qarışığı olan keramika nümunələrinin bir qismi cilalanıb. Həmin nümunələrin bir qismi isə qaba qum qarışığı olan gildən hazırlanıb. Bu yaşayış yerlərinin araşdırılması Naxçıvanın Erkən və Son Eneolit dövrü mədəniyyətinin Urmiya hövzəsi və Şərqi Anadolu ilə əlaqələr şəraitində inkişaf etdiyini təsdiqləyir.

Araşdırmalar göstərir ki, bu mövsümi yaşayış yerləri Göyəm, Dərələyəz və Zəngəzur dağlarında yerləşən metal və qeyri-metal yataqların istismarında müəyyən rol oynayıb. Zirincli yaşayış yerində mis filizinin qalıqlarına və metal qəliblərə rast gəlinməsi bu yaşayış yerlərində metal emalının mövcud olduğunu göstərir. Bu yaşayış yerindən aşkar olunan gil qəlib standart yastı baltalar tökmək üçün olub və yaşayış yerində bu tip baltaların ardıcıl şəkildə düzəldilməsinə işarə edir. Ovçular təpəsində isə metalərtimə sobaları üçün körük ucluğu tapılıb. Məlum olduğu kimi, mis ilə zəngin Zəngəzur dağlarının yataqlarından qədim dövrdə istifadə olunub. Zəngəzur yataqlarında qədim mədənlərə və mis emalının izlərinə də rast gəlinib. Şübhə yoxdur ki, qədim insanların köç yolları üzərində salınan bu yaşayış yerləri Zəngəzur mis yataqlarının Naxçıvanda məskunlaşan tayfalar tərəfindən istismar edildiyini göstərir.

Naxçıvanın Eneolit abidələrinin bir qismində Sünik yataqlarının obsidianlarından istifadə olunması da bunu təsdiq edir. Araşdırmalar Urmiya hövzəsinin yaşayış yerlərində başlıca olaraq Sünik obsidianından istifadə olunduğunu göstərir. Naxçıvan abidələrində isə əsasən, Göyçə obsidianından istifadə edilib. Sünik obsidianı faiz etibarı ilə azdır və ikinci yerdədir. Ehtimal ki, Urmiya hövzəsində yaşayan insanlar Zəngəzur dağlarındakı xammal mənbələri ilə Naxçıvançay vadisində yaşayan insanlar vasitəsilə əlaqə saxlayıblar. Qeyd etmək lazımdır ki, bu yaxınlarda Naxçıvançay vadisindən üzərində mis filizinin izləri olan mədən alətinin tapılması bu əlaqələrin yalnız obsidianla deyil, həm də mis yataqları ilə bağlı olduğunu göstərir.

Yeni abidələrin, xüsusilə Naxçıvan təpə yaşayış yerinin tədqiqi Cənubi Qafqazın Eneolit mədəniyyəti haqqında bitkin təsəvvür əldə etməyə imkan verir. Bu abidələrin tədqiqi, həmçinin Cənubi Qafqazın, o cümlədən Azərbaycanın eramızdan əvvəl V-IV minilliklərə aid Eneolit abidələrini yenidən dövrləşdirməyə imkan verir.

***Mübaliğəsiz deyə bilərik ki, son illər Naxçıvan abidələrinin öyrənilməsi sahəsindəki uğurlar Cənubi Qafqaz arxeologiyasında inqilabi dəyişikliklər yaradıb, elmi fikirləri və ədəbiyyatı tamamilə dəyişdirib. Mədəni irsimizin öyrənilməsindəki bu uğurlar məqsədyönlü humanitar siyasətin, tarixi keçmişimizə göstərilən yüksək diqqətin nəticəsidir. Heç şübhə etmirik ki, yaxın illər ərzində minillik tariximizdən xəbər verən abidələrimizin tədqiqi yeni uğurlara imza atmağa imkan verəcəkdir.***

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

***Culfa Rayon İcra Hakimiyyətində dini bayramların, ayinlərin və yas mərasimlərinin milli-mənəvi dəyərlərimizə və ənənələrimizə uyğun şəkildə keçirilməsi ilə bağlı müşavirə olub. Tədbiri İcra Hakimiyyətinin başçısı Şükür Babayev açaraq çıxış edib.***

## Müşavirə keçirilib



Bildirilib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə xalqımızın multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində məqsədyönlü siyasət həyata keçirildi, dövlət-din münasibətlərində yeni bir mərhələ başlandı. Multikulturalizmin cəmiyyətlər arasında münasibətlərdəki önəmini nəzərə alaraq ölkə başçısı cənab İlham Əliyev 2014-cü ilin may ayında dünyada ilk olaraq ölkəmizdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında Fərman imzalayıb. Həmçinin Azərbaycanda 2016-cı il “Multikulturalizm ili”, 2017-ci il isə “İslam Həmrəyliyi ili” elan olunub.

Təsadüfi deyil ki, Azərbaycan dünyada təkcə enerji resursları ilə zəngin olan ölkə kimi deyil, həm də insan hüquq və azadlıqlarına hörmətlə yanaşılan, tolerant və multikultural ölkə kimi tanınır. 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi Azərbaycanın müsəlman dünyasının layiqli bir üzvü kimi beynəlxalq aləmin diqqət mərkəzində olmasından irəli gəlir.

Vurğulanıb ki, bu gün Naxçıvan Muxtar Respublikasında da milli-mənəvi dəyərlərimizin qorunması, dini tolerantlıq, dövlət-din münasibətlərinin nizamlanması sahəsində ardıcıl işlər aparılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il avqustun 20-də imzaladığı “Naxçıvan Muxtar Respublikasında multikulturalizm və dini məsələlər üzrə komissiyaların yaradılması haqqında” Sərəncamın əsas məqsədi dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsidir.

Şükür Babayev diqqətə çatdırıb ki, milli-mənəvi dəyərlərimizin, dini etiqadlarımızın qorunmasına göstərilən dövlət qayğısı sayəsində Culfa rayonunda da tarixi, mədəniyyət, dini və təbiət abidələrinin və mədəni irs obyektlərinin bərpası və yenidən qurulması, həmçinin yeni məscidlərin tikintisi istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Milli-mənəvi dəyərlərimizə göstərilən diqqətin nəticəsidir ki, son illərdə rayonun Əbrəqunus kəndində yeni məscid binası, Camaldın, Ərəzin, Xanəgah, Milax kəndlərində yas mərasimlərinin keçirilməsi üçün mərasim evləri tikilib istifadəyə verilib. Hazırda rayon ərazisində 24 məscid, 5 ziyarətgah mövcuddur.

Tədbirdə rayon Polis Şöbəsinin rəisi Nəriman İbrahimov, Təhlükəsizlik Xidmətinin Culfa Rayon Şöbəsinin rəisi Nəsimi Abbaslı, rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini – dini qurumlarla işin təşkilatçısı Orxan Ələkbərli çıxış ediblər.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

## Məişət xidməti hər zaman ehtiyac duyulan sahədir

***Muxtar respublikamızın gündən-günə sürətli inkişafı burada yaşayan insanların həyat səviyyəsinin yüksəlməsinə, onların gündəlik tələbatlarının yerinə yetirilməsinə xidmət edən yeni müəssisələrin də yaradılmasına stimul olur. Elə şəhərimizdə 2010-cu ildən fəaliyyətə başlayan "Məişət Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyəti də məişətimizdə yarana biləcək çətinliklərin dərhal həll olunmasında muxtar respublika sakinlərinə xidmət göstərən bir müəssisədir. Bu müəssisə, xüsusilə də qadınların daha çox üz tutduqları ünvandır, çünki onların evlərində üzərinə düşən işlər burada qısa bir vaxtda, həm də yüksək keyfiyyətlə həyata keçirilir, qadın əməyi yüngülləşdirilir.***



Müəssisədə xalça və pərdələrin yuyulması, paltarların quru və kimyəvi təmizlənməsi, parça və dəri əşyaların boyanması, yumşaq mebellərin evdə təmizlənməsi və təmiri, evlərin təmizlənməsi və təmiri, evdən-evə yüklərin daşınması, məişət əşyalarının, istilik və su sistemlərinin təmiri, yundan yorğan-döşək salınması, hazır döşəklərin yuyulması kimi sifarişlər yerinə yetirilir. Görülən işlərlə yaxından tanış olmaq üçün bu günlərdə müəssisədə olduq. MMC-nin rəhbəri Zamin Abbasovla söhbət zamanı o bildirdi ki, müəssisə 8 ildir, fəaliyyət göstərir. İldən-ilə burada şəraitin daha da yaxşılaşdırılması, müasir aparatların alınması, Türkiyə Respublikasından dəvət etdiyimiz mütəxəssislər tərəfindən kursların keçirilməsi işimizi günün tələbləri səviyyəsində qurmağımıza səbəb olub.

Söhbətimizi xalçaların yuyulma prosesini izləyərək davam etdirdik. Müəssisə rəhbəri dedi ki, xalçaların daha da təmiz və keyfiyyətli yuyulması üçün ötən il müəssisəyə yeni tozçırpan aparat alınıb. Bu aparat vasitəsilə öncə xalçaların tozu tamamilə çıxarılır, sonra yuyulmaya verilir. Xalçayuma yerimiz əvvəllər 3 metr enində, 8 metr uzunluğunda idi. Sonra daha böyükölçülü xalçaların yuyulması sifarişlərini də aldığımızdan buranı bir qədər də genişləndirib enini 4 metrə çatdırdıq. Yuma zamanı xalça bu əraziyə sərilir və isladılır, səthi köpükvurma aparatı ilə yüksəkkeyfiyyətli yuyucu vasitə ilə tamamilə örtülür. Bundan sonra yuma aparatı işə salınır, aparatın şotkaları xalça üzərində irəliyə doğru hərəkət etməklə birinci mərhələni həyata keçirir. İkinci mərhələdə isə xalça durulanır və ölçüsünə görə yüksək sıxma gücü olan aparatlar vasitəsilə sıxılır və təmiz havada qurudulur. Daha sonra xalçalara xüsusi aparatda işıq altında baxılır, bir dəfə də quru təmizləmə aparılır, xüsusi atirləndiricilər vurulur və polietilen örtüyə bükülərək ünvana çatdırılır. Z.Abbasov onu da bildirdi ki, xalçayuma sifarişləri evlərdən qəbul edilir və çatdırılması muxtar respublikanın istənilən şəhər, rayon və kəndlərində pulsuz həyata keçirilir.

Söhbət əsnasında "Kəndlərimizdə toxunan xalçalarımızı evdə, yoxsa burada yumaqla ömürlərini uzada bilərik?" sualımızı isə o, belə cavablandırdı ki, sifarişləri arasında tez-tez belə xalçalardan olur. Əlbəttə, buradakı xüsusi aparatlar bütün növ xalçaların rənglərinin əvvəlki kimi qalmasına, keyfiyyətinə xələl gəlməməsinə xidmət edir. Ev şəraitində yuyulan xalçalar sərilərkən ondan axan su ilə rənglər də axıb gedirsə, burada yumadan sonra dərhal aparat vasitəsilə suyun sıxılması rənglərin pozulmaması ilə nəticələnir. Həm də yuma aparatı xalçanın xovunu da təzələyir. Yuyulduqdan sonra baxdıqda elə bilirsən ki, təzə toxunub.

Müəssisədə paltarların quru və kimyəvi təmizlənməsi, boyanması prosesi ilə də tanış olduq. Müəssisə rəhbəri bildirdi ki, paltarların yuyulması, quru və kimyəvi təmizlənməsi üçün sifarişləri Naxçıvan şəhəri, Nizami küçəsi, bina 41 və Əliabad qəsəbəsi, döngə 22, 1[A] ünvanlarında yerləşən məntəqələrimizdə qəbul edirik. Müştəri paltarı həmin məntəqələrə verir, oradan da götürür.

Müəssisə, həmçinin təcili sifarişləri də yerinə yetirir. Məsələn, şəhərimizdə qonaq olanlar və ya hansısa ziyafətə getmək istəyənlər paltarlarını təcili təmizlətmək istəyirlərsə, xüsusi aparatlar vasitəsilə bu sifarişlər 20-30 dəqiqəyə hazırlanır. Təmizlənmiş və boyanmış paltarları bizə göstərən Sevinc xanım asılqandakı kostyumu əlinə alaraq onu quru təmizləməyə alarkən çox çirkli və qırış vəziyyətdə, boyanıb ütülənmiş şalvarın isə boyaqdan əvvəl tamamilə rəngini itirmiş olduğunu bildirdi. Qeyd edim ki, həqiqətən də, baxdığımız paltarların üzərində işlər çox yüksək səviyyədə görülmüşdü. Zamin müəllim işin yaxşı nəticəsinə müəssisədə İtaliya, Almaniya və Türkiyə istehsalı olan yüksəkkeyfiyyətli aparatlar vasitəsilə nail olunduğunu bildirdi.

Burada salınan yorğan-döşəklər, yuyulub, ütülənən pərdə, yataq örtükləri, dəstləri səliqəsahmanı ilə diqqətimizi cəlb etdiyindən müəssisə rəhbərinə "Bəs bu işlər hansı qiymətlərə həyata keçirilir?" sualı ilə müraciət etdik. Öyrəndik ki, xalçanın 1 kvadratmetri 2, pərdənin 1 metri 1,5-2 manata yuyulur, kostyumun kimyəvi təmizlənməsi 12 manata edilir, boyaq işləri 4-18 manat arası dəyişir. Digər xidmətlərin isə görülən işə görə hər birinin öz qiyməti var. Bizsə onu deyə bilərik ki, bəzən evlərimizdə öhdəsindən gələ bilmədiyimiz, bacarmadığımız, gücümüz çatmayan işlər burada münasib qiymətlərə, həm də keyfiyyətlə həyata keçirilir.

**Mətanət MƏMMƏDOVA**

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi pediatrı, Azərbaycan Respublikasının Əməkdar həkimi İbrahim Ağayevin "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində "Uşaqlarda qızdırma və çəngolma zamanı nə etməli?" adlı metodik vəsaiti nəşr olunub.*

*Yeni nəşrlər*

## Metodik vəsait işıq üzü görüb

Vəsaitdə uşaqlarda qızdırma və çəngolma sindromları və bu zaman göstərilən ilkin tibbi yardım barədə məlumatlar öz əksini tapır. "Qızdırma nədir?" bölməsində məlumat verilir ki, qızdırma xəstəlik deyil, əksinə müxtəlif xəstəliklərin əlaməti kimi özünü göstərir. Uşaqlarda qızdırma müxtəlif qıcıqların – virus, bakteriya, göbələk və parazitlərin təsirinə qarşı orqanizmin müdafiə reaksiyasıdır. Bu qıcıqların təsirindən termorequlyasiya (istilik tənzimi) pozulduğundan hərarət yüksəlir.

"Uşaqlarda qızdırmanın müalicə prinsipləri" bölməsində analara həkim gələnə qədər nə edəcəkləri barədə məlumat verilir. Eyni zamanda metodik vəsaitdə uşaqlarda qıcolmalar, səbəbləri, ilkin yardımlar, müalicəsi, bununla əlaqədar muxtar respublikada aparılan səhiyyə maarifi işinin təşkili, valideynlərin tibbi maariflənməsi və digər bölmələr də diqqəti cəlb edir.

Metodik vəsait müəllifin uzun illərin pediatrik təcrübəsi, müşahidəsi və müxtəlif ədəbiyyatlardan istifadəsi nəticəsində ərsəyə gəlmişdir. Bu kitabdan analarla yanaşı, tibb kollecinin və tibb fakültəsinin tələbələri də faydalana bilərlər.



Metodik vəsait Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurasının qərarı ilə çap olunub. Xatırladaq ki, "Uşaqlarda qızdırma və çəngolma zamanı nə etməli?" adlı kitab müəllifin səhiyyə maarifi xarakteri daşıyan dördüncü kitabıdır.

**Hüseyn ƏSGƏROV**

## Növbəti şənbə konserti olub



*Avqustun 18-də Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" devizi altında Naxçıvan şəhərinin Saat meydanında növbəti şənbə konserti olub.*

Mahnı və Rəqs Ansamblı geniş konsert proqramı ilə çıxış edib. Ansamblın üzvlərinin ifasında xalq və bəstəkar mahnıları, xalq rəqsləri tamaşaçılara təqdim olunub.

Ansamblın üzvlərindən Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Hünər Əliyevin, Xatirə Səfərovanın, həmçinin Cəfər Tağıyevin, Namiq Vəliyevin, Məhərrəm Quliyevin, Nərmin Hüseynovanın, Hüseyn Qasımovun ifa etdikləri şən və lirik mahnılar tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Rəqs qrupunun ifa etdiyi "Xançobanı", "Naz eləmə" və başqa rəqslər konsertə əlvanlıq gətirib. Bir saatdan artıq davam edən konsert "Yallı" rəqsi ilə başa çatıb.

Konsert proqramı şəhər sakinləri və qonaqlarda xoş ovqat yaradıb.

Qeyd edək ki, yay mövsümü ərzində əhalinin istirahətinin səmərəli təşkili, asudə vaxtının mənalı keçirilməsi məqsədilə hər həftə şənbə konsertləri keçirilir.

**Əli RZAYEV**

## Karateçimiz beynəlxalq turnirdə bürünc medal qazanıb



İran İslam Respublikasının Urmiya şəhərində karate-do üzrə "Urmiya-Open" XIV Həmrəylik və Dostluq beynəlxalq çempionatı keçirilib.

15 ölkədən 320 idmançının iştirak etdiyi çempionatda Azərbaycan Milli Karate Federasiyasının yetirmələri də mübarizə aparıblar.

Sevindirici haldır ki, millimizin heyətində qonşu ölkədə çıxış edən idmançılar arasında Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirməsi Aslan İsmayılov da mübarizə aparıb. 4 gün davam edən çempionatda idmançımız 16-17 yaş qruplarında tatami üzərinə çıxıb. O, beynəlxalq çempionatı 76 kiloqram çəki dərəcəsində üçüncü pillədə başa vurub.

Sonda idmançımız təşkilatçılar tərəfindən diplom, medal və pul mükafatı ilə təltif olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** İşçi işəgötürənə vurduğu ziyana görə hansı məsuliyyəti daşıyır?*

***Cavab:*** Azərbaycan Respublikasının Əmək Məcəlləsində işçinin işəgötürənə vurduğu ziyana görə ziyanın ödənilməsi həddindən və təqsirin formasından asılı olaraq maddi məsuliyyətinin iki növü müəyyən edilib. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 198-ci maddəsi işçinin işəgötürənə vurduğu ziyana görə orta aylıq əməkhaqqı məbləğinədək maddi məsuliyyətini, 199-cu maddəsi isə tam maddi məsuliyyətini nəzərdə tutur. Orta aylıq əməkhaqqı məbləğinədək maddi məsuliyyət işçinin işəgötürənə vurduğu ziyana görə bir aylıq orta əməkhaqqı məbləğinədək, tam maddi məsuliyyət isə işçinin əməkhaqqının məbləğindən asılı olmayaraq, maddi ziyanı tam həcmdə ödəməsidir.

İşçinin maddi məsuliyyəti ziyanın vurulduğu və ya aşkar edildiyi andan başlayır. Ziyanı vurmaqda təqsiri olan tərəf cinayət məsuliyyəti, habelə inzibati və digər məsuliyyətə cəlb edilməsindən asılı olmayaraq, müəyyən edilmiş qaydada maddi ziyanın məbləğini ödəməyə borcludur. Həmçinin əmək münasibətlərinə xitam verilməsi təqsirkar tərəfi maddi məsuliyyətdən azad etmir.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 199-cu maddəsində işçinin işəgötürənə vurduğu ziyana görə tam maddi məsuliyyətinin 7 halı göstərilmişdir:

- saxlanmaq və başqa məqsədlər üçün işçiyə verilmiş əmlakın və digər sərvətlərin salamatlığını təmin etməməyə görə əmək müqaviləsi bağlanarkən, habelə əmək münasibətləri prosesində əmək funksiyasının xarakteri ilə əlaqədar olaraq işçinin öz üzərinə tam maddi məsuliyyət götürməsi haqqında işəgötürənlə yazılı müqavilə bağlandıqda;
- işçi əmlakı və digər sərvətləri birdəfəlik etibarnamə və ya digər birdəfəlik hüquqmüəyyənedici sənədlər əsasında işəgötürənə, yaxud onun nümayəndəsinə hesabat vermək şərti ilə qəbul etdikdə;
- inzibati xətalar, yaxud cinayət, habelə vergi qanunvericiliyi ilə cəza verilməsi nəzərdə tutulmuş hərəkət və ya hərəkətsizliyində ictimai təhlükəli əməllərin əlamətləri olduqda;
- əmlakı və ya digər maddi sərvətləri qəsdən korladıqda, məhv etdikdə, habelə digər üsulla işəgötürənə qəsdən ziyan vurduqda;
- alkoqol, toksik (zəhərli), psixotrop maddələrdən və ya narkotik vasitələrdən sərxoş vəziyyətdə ziyan vurulduqda;
- işəgötürənin kommersiya sirrini yaydıqda;
- işəgötürənin şəxsiyyətini ləkələyən, şərəf və ləyaqətini alçaldan, habelə həqiqətə uyğun olmayan böhtanlı və təhqirli iftiralar, yalan məlumatlar yaymaqla onun sahibkarlıq fəaliyyətinə ciddi xələl gətirmiş mənəvi ziyan vurulduqda.

İşçi qanunazidd hərəkətləri ilə işəgötürənə vurduğu ziyana görə göstərilən bu hallarda tam həcmdə maddi məsuliyyət daşıyır.

Ziyanın vurulması aşkar edilən anda 18 yaşı tamam olmamış işçilər yalnız inzibati xətalar, yaxud cinayət, habelə vergi qanunvericiliyi ilə cəza verilməsi nəzərdə tutulmuş hərəkət və ya hərəkətsizliyində ictimai təhlükəli əməllərin əlamətləri olduqda, əmlakı və ya digər maddi sərvətləri qəsdən korladıqda, məhv etdikdə, habelə digər üsulla işəgötürənə qəsdən ziyan vurduqda, alkoqol, toksik (zəhərli), psixotrop maddələrdən və ya narkotik vasitələrdən sərxoş vəziyyətdə ziyan vurulduqda qanunvericiliklə müəyyən edilən qaydada tam maddi məsuliyyət daşıyırlar.

İşçinin işəgötürənə vurduğu ziyanın məbləği orta əməkhaqqından çox deyildirsə, onun tutulması işəgötürənin əmri (sərəncamı, qərarı) ilə həyata keçirilir. Əgər ziyan işçi tərəfindən tam maddi məsuliyyət daşıdığı hallarda vurulmuşdursa, onun məbləği isə işçinin orta aylıq əməkhaqqından çoxdursa və işçi onu könüllü olaraq ödəməkdən imtina edirsə, onda işəgötürənin müraciəti əsasında həmin ziyan məhkəmə qaydasında ödənilə bilər.

***Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 595